

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 251 (21.403)

*22 dekabr 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 21 dekabr tarixli sərəncamları ilə 2014/2015-ci tədris ilində keçirilmiş "Ən yaxşı ümumi təhsil müəssisəsi" və "Ən yaxşı müəllim" müsabiqələrində müvəffəqiyyət qazanan ümumi təhsil müəssisələri və müəllimlər mükafatlandırılmışlar. Həmin ümumi təhsil müəssisələri və müəllimlər arasında muxtar respublikamızda fəaliyyət göstərən məktəblər və müəllimlər də var.

**"Ən yaxşı ümumi təhsil müəssisəsi" müsabiqəsində müvəffəqiyyət qazandıqlarına görə 10000 (on min) manat məbləğində birdəfəlik pul mükafatı ilə mükafatlandırılmışlar:**

Culfa şəhəri 2 nömrəli tam orta məktəb
Naxçıvan şəhəri 14 nömrəli tam orta məktəb
Ordubad rayonu Aşağı Əylis kənd tam orta məktəbi

**"Ən yaxşı müəllim" müsabiqəsində müvəffəqiyyət qazandıqlarına görə 5000 (beş min) manat məbləğində birdəfəlik pul mükafatı ilə mükafatlandırılmışlar:**

Ağayeva Vüsalə Əli qızı
Axundzadə Həcər Təvəkkül qızı
Qasımova Tahirə İsmayıl qızı
Rzayev Hüseyn Həsən oğlu
Seyidova Şərəbanı Mirəbdüləzim qızı

## Nağdsız ödənişlərə üstünlük verənlər hədiyyə qazanıb

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı ilə "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin dördüncü tirajında hədiyyə qazanmış şəxslərlə görüş keçirilib. Tədbirdə vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Nurlan Əliyev nağdsız ödənişlərin aparılması sahəsində görülən işlərdən danışıb. O deyib ki, nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində Vergilər Nazirliyi tərəfindən 2014-cü ildən başlayaraq nağdsız ödənişlərin həcminin artırılması məqsədilə hər 6 ayda bir dəfə "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbir keçirilir. Təkcə 2014-cü il ərzində elektron ödəniş vasitələrindən istifadə edərək ödəniş aparan vətəndaşların ödədikləri məbləğə müvafiq olaraq 223 nəfərə 20 min manatlıq hədiyyə verilib. Bu ilin birinci yarısında muxtar respublika üzrə 200 vətəndaşa 10 min manat dəyərində müxtəlif məişət avadanlıqları təqdim edilib.***



Bildirilib ki, seçim zamanı obyektivliyi təmin etmək məqsədilə bir neçə kriteriyaya diqqət yetirilib. Belə ki, yuxarı məbləğdə əməliyyat aparılmasından əlavə, əsas göstərici kimi say etibarı ilə POS-terminallardan daha çox istifadə edən vətəndaşlara üstünlük verilib. Əminliklə demək olar ki, belə tədbirlər əhalidə POS-terminallardan istifadəyə olan marağı daha da artıracaq, nağdsız hesablaşmaların artırılmasına təkan verəcək.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Elvin Axundov nağdsız ödənişlərin üstünlükləri və bu sahədə bank orqanlarının apardıqları stimullaşdırıcı tədbirlər barədə məlumat verib. Bildirib ki, 2015-ci ilin yanvar-noyabr ayları ərzində ödəniş alətləri infrastrukturunun genişləndirilməsi diqqət mərkəzində olub. 1 dekabr 2015-ci il tarixə əsas ödəniş alətlərindən sayılan POS-terminalların sayı 478-i Naxçıvan şəhərində, 536-sı isə rayon və kənd mərkəzlərində olmaqla, 1014 ədədə çatdırılıb. Nağdsız ödəniş infrastrukturunun tərkib hissələri olan bankomat və ödəniş kartlarının sayı da artırılıb. Belə ki, 1 dekabr 2015-ci il tarixə bankomatların sayı 55-i Naxçıvan şəhərində, 43-ü isə rayon və kənd mərkəzlərində olmaqla, 98 ədəd təşkil edib. Ödəniş kartlarının sayı muxtar respublika üzrə 221 min 405 ədədə çatdırılıb ki, bu da hər iki nəfərdən birinin ödəniş kartı ilə təmin edilməsi deməkdir. İnfrastruktur imkanlarının genişlənməsi eyni zamanda nağdsız ödəniş həcminin artmasına da mühüm təsir göstərib. Əgər 2014-cü il ərzində muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcmi 12 milyon 513 min manat, o cümlədən Naxçıvan şəhəri üzrə 8 milyon 536 min manat təşkil edirdisə, 2015-ci ilin on bir ayı ərzində muxtar respublika üzrə bu göstərici 16 milyon 640 min manat olub ki, bunun da 9 milyon 13 min manatı Naxçıvan şəhərinin payına düşüb. Cari ilin yanvar-noyabr ayları ərzində muxtar respublika sakinləri tərəfindən aparılmış nağdsız ödənişlərin 9 milyon 778 min manatı POS-terminallar üzərindən, 6 milyon 861 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə rəisi Rəşad Əliyev çıxış edərək "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin dördüncü tirajında hədiyyə qazanmış şəxslər və hədiyyələrin müəyyən edilməsi haqqında qısa məlumat verib. Rəşad Əliyev deyib ki, vergi və bank orqanlarının əməkdaşlarının iştirakı ilə yaradılmış komissiya tərəfindən "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin dördüncü tirajında hədiyyə qazanmış şəxslərin sayı muxtar respublikamızın bütün şəhər və rayonlarını əhatə etməklə 198, o cümlədən Naxçıvan şəhəri üzrə 42 nəfər müəyyən olunub. Komissiya tərəfindən bank orqanlarından 1 iyul 2015-ci il tarixdən 1 dekabr 2015-ci il tarixədək nağdsız ödəniş aparan şəxslər barədə müvafiq məlumatlar əldə edilib.

Sonra Naxçıvan şəhər sakini olan 42 nəfərə müxtəlif hədiyyələr təqdim olunub.

Məlumat üçün bildirək ki, həmin gün Şahbuz rayonunda da analoji tədbir keçirilib, 21 nəfər rayon sakininə hədiyyələr verilib.

✍ **Səbuhi HÜSEYNOV**

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələr Ədliyyə Nazirliyinin bir sıra qurumlarının fəaliyyəti ilə tanış olublar





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 27 iyul 2015-ci il tarixli Sərəncamına uyğun olaraq, dünən Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə təhsil alan tələbələr Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzində və Naxçıvan bələdiyyəsində olublar. Bələdiyyələrlə İş Mərkəzində tələbələrə mərkəzin fəaliyyət istiqamətləri barədə geniş məlumat verilib. Bildirilib ki, mərkəzdə bələdiyyə fəaliyyətinə inzibati nəzarət qaydasında daxil olan bələdiyyə aktlarının qanunvericiliyin tələblərinə uyğun olub-olmaması araşdırılır. Bələdiyyələrə metodik köməkliklər göstərilir, onlar bələdiyyə qanunvericiliyinə aid hüquqi ədəbiyyatlarla təmin edilirlər.

Tələbələr bələdiyyələrdən daxil olmuş aktlarla tanış olub, habelə bələdiyyə aktlarının araşdırılması işində iştirak ediblər.

Naxçıvan bələdiyyəsində bələdiyyənin Ümumi və Vergi şöbələrinin gündəlik iş prosesi ilə tanış olan tələbələrə Ümumi şöbədə daxil olan sənədlərin qeydiyyatı, işlənmə qaydası, rəsmiləşdirilməsi və göndərilməsi qaydaları, qeydiyyat jurnallarının işlənməsi, Vergi şöbəsində isə torpaq və əmlak vergisinin hesablanması qaydası, bildirişlərin yazılması, paylanılması proseduru, habelə vergi ödəyicilərinin qeydiyyatının aparılması barədə ətraflı məlumatlar verilib.

Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr həmin gün nazirliyin aparatında, Məhkəmə Ekspertizası Mərkəzində və Penitensiar Xidmətin aparatında olublar. Onlara nazirlikdə katibliyə daxil olan sənədlərin qeydiyyatı, işlənmə qaydası, rəsmiləşdirilməsi və göndərilməsi qaydaları, qeydiyyat jurnallarının işlənməsi barədə məlumatlar verilib. Məhkəmə Ekspertizası Mərkəzində tələbələr praktik olaraq ballistik ekspertizaların keçirilməsi ilə bağlı atəş zalında güllələrin tutulması, atəş zamanı güllənin sürətinin ölçülməsi, silahı dəzgaha bərkidib təhlükəsiz yerdən atəş açmaq üçün nəzərdə tutulan avadanlıqlarla, eyni zamanda daktiloskopik ekspertizaların keçirilməsi ilə bağlı əl-barmaq izlərinin eyniləşdirilməsində istifadə olunan avadanlıqlarla tanış olublar. Penitensiar Xidmətdə tələbələrə xidmətin əsas fəaliyyət istiqamətləri barədə məlumat verilib.

Sonra tədbir Naxçıvan Dövlət Universitetində davam etdirilib. Universitetin rektoru Saleh Məhərrəmov belə tədbirlərin tələbələrin təhsil aldıqları ixtisaslara daha dərindən yiyələnməsində böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev bildirib ki, Ali Məclis Sədrinin imzaladığı Sərəncamdan irəli gələn vəzifələr nazirlikdə müzakirə olunub, bununla bağlı nazirliyin və Naxçıvan Dövlət Universitetinin birgə tədbirlər planı təsdiq edilib. Universitetin müvafiq ixtisaslar üzrə tələbələri nazirlikdə və bələdiyyələrdə təcrübə kursları keçirlər. Suliddin Əliyev 1924-cü ildə yaradılan nazirliyin ötən dövr ərzində keçdiyi yoldan danışıb. Qeyd olunub ki, nazirliyin davamlı inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadiminin 24 avqust 2002-ci il tarixli Fərmanı ilə nazirliyə əlavə səlahiyyətlər verilib.

Nazirliyin bugünkü fəaliyyət istiqamətləri barədə də danışan Suliddin Əliyev vurğulayıb ki, hazırda nazirliyin strukturuna Penitensiar Xidmət, Məhkəmə Ekspertizası Mərkəzi, icra xidməti, notariat və qeydiyyat qurumları, Bələdiyyələrlə İş Mərkəzi və digər şöbə, bölmələr daxildir.

Diqqətə çatdırılıb ki, həmin qurumların bəzilərinin praktik işi ilə yaxından tanış olan tələbələrlə növbəti görüşlər nazirliyin digər xidmət sahələrində təşkil ediləcək, belə görüşlər onların bu sahə üzrə nəzəri biliklərinin praktik şəkildə mənimsənilməsinə müsbət təsirini göstərəcək.

✍ **Muxtar MƏMMƏDOV**

## Abonentlər fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilir

***"Naxçıvanqaz" İstehsalat Birliyi davamlı və dayanıqlı təbii qazla təminat üçün qaz təchizatı sistemində texniki baxış tədbirlərini davam etdirir, təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun gələn texnoloji rejimdə həyata keçirilməsi üçün tədbirlər görür.***

Bu barədə məlumat qəzetimizə "Naxçıvanqaz" İstehsalat Birliyindən daxil olub. Məlumatda bildirilir ki, muxtar respublika üzrə 1 dekabr 2015-ci il tarixə təbii qaz istehlakçılarının ümumi sayı 85 min 421, o cümlədən 83 min 510 əhali abonenti və 1911 qeyri-əhali abonenti olub. Cari ilin ötən dövründə 1346 abonent, o cümlədən 1189 əhali abonenti və 157 qeyri-əhali abonenti tərəfindən daxil olan müraciətlərə əsasən ev, mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb. İstehlakçıların təbii qazla fasiləsiz təmin edilməsi ilə yanaşı, bu sahədə infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzində saxlanılıb. Yeni sosial-inzibati obyektlərin tikilməsi, yolların genişləndirilməsi ilə əlaqədar daşıyıcı-paylayıcı qaz kəmərlərinin yerləri dəyişdirilib və yeni qaz xətləri çəkilib.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan istifadəsində müasir standartlara cavab verən texnologiyalardan istifadə etmək məqsədilə Naxçıvan şəhərində ön ödənişli smart-karttipli qaz sayğaclarının quraşdırılmasına başlanılıb, dekabrın 21-nə qədər, ümumilikdə, 7869 qaz sayğacı quraşdırılıb. İlkin olaraq sifariş əsasında Türkiyə istehsalı olan 10 min ədəd sayğac gətirilib. Sayğacların kənar müdaxilələrdən mühafizəsi üçün qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçirilir.

"Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən müvafiq sayda ödəmə məntəqələri yaradılıb. Həmin məntəqələr müasir avadanlıqlarla təmin edilib.

Qəza hallarının aradan qaldırılmasında operativliyin təmin edilməsi, yeni qaz xətləri çəkilərkən və bərpa olunarkən mövcud standartların tələblərinin gözlənilməsinə diqqətin artırılması, yaradılmış mal və material ehtiyatlarından səmərəli istifadə edilməsi, işlənən materialların yerinə yenilərinin alınıb gətirilməsi, sabit ehtiyatın yaradılması və işçilərin qış mövsümünə uyğun xüsusi geyim və avadanlıqlarla təmin olunması diqqət mərkəzində saxlanılıb.

Avtomat qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət işləri qrafik üzrə müəyyən olunan vaxtlarda aparılıb. Təbii qazın mexaniki qarışıqlardan təmizlənməsi üçün tətbiq olunan qaztəmizləyici separator və süzgəclərə, texnologiyaya uyğun qurulmuş bağlayıcı avadanlıqlara, təzyiq tənzimləyicilərinə, qaz sərfinin hesablanması üçün qaz sərfini ölçən cihazlara, elektrokimyəvi mühafizə qurğularına və bütün texnoloji avadanlıqlara zəruri texniki xidmət göstərilib, detal və hissələr yenisi ilə əvəz olunub. Ümumiyyətlə, abonentlərin fasiləsiz və təhlükəsiz təbii qazla təmin olunması üçün hər cür şərait yaradılıb.

✍ **Kərəm HƏSƏNOV**

## Şahbulaq kəndi muxtar respublikanın abad yaşayış məntəqələrindəndir




*...Üzü dağlara sarı yol gedirik. Arpaçay dəryaçasına çatmamış Gümüşlü kəndindən sağa ayrılan yol Şahbulağa tərəf uzanır. Külək çiskin yağış damcılarını avtomobilin şüşəsinə çırpır. Burada dağların köksünü yararaq geniş yol çəkən insan əllərinin qüdrətinə heyran qalırsan. Yolun kənarı ilə axan suya baxırıq. Yol yoldaşımız, Şahbulaq kənd tam orta məktəbinin direktoru Salman Cəfərov bizi sükutdan ayırır:*

– Görürsünüzmü, əvvəlki yoldan əsər-əlamət qalmayıb. İki il bundan əvvəl buranın əsaslı təmiri zamanı müasir yol tikintisi üçün lazım olan bütün tədbirlər görüldü, hamarlama işləri aparıldı, lazım olan yerlərə qum-çınqıl qatı verildi, 2 körpü tikildi, 20 su keçidi salındı, 310 metr istinad divarı, 280 metr beton kanal çəkildi, sonra qalın asfalt örtük salındı. Hələ bunlar nədir ki… Ucqar dağ kəndinə şəhər görkəmi verməyi yeni tikililəri görəndə heyranlığınızı gizlədə bilməyəcəksiniz.

Kəndin girəcəyində Salman müəllim hündür dağın ətəyindən süzülən bulağa əli ilə işarə edib deyir:

– Artıq Şapur bulağına çatırıq. Gördüyünüz bu çayla axan su Şapurundur. Bir azdan hər şeyi öz gözlərinizlə görəcəksiniz – bulağın safluğını da, necə çağlamasını da…

Öz sərin havası, sulu çeşmələri, yamyaşıl örtüyü ilə seçilən yaşayış yerlərimiz çoxdur. Hər tərəfdən dağlarla əhatə olunmuş Şahbulaq da belə kəndlərimizdəndir. Kəndin yay vaxtları kimi, payızında, qışında da qoynu qonaqlı-qaralı olur, təbiəti qəlbləri riqqətə gətirir…

Şahbulaq kəndi göz yaşları kimi duru və sərin sulu Şapur bulağından başlayır. Qayanın dibindən çağlayıb çıxan bu həyat çeşməsinin sirri əsrlər boyu insanları maraqlandırıb, hətta adamlarda özünə qarşı etiqad hisləri də yaradıb. Şapur bulağının üstündəki qaya taxçaları "Əhdigah piri" adlandırılır. Şapur bulağı və Əhdigah pirinin taxçaları əsrlərdir ki, inanc yeridir və kənd sakinləri əkin-tikindən, toy-düyündən əvvəl bura gəlib ürəklərində niyyət tutur və taxçalara daşlar atırlar. Daş taxçalardan birində qalarsa, bu, ürəkdə tutulan arzunun və diləyin çin olacağına işarədir.

Şahbulaq kəndi dağlarının, dərələrinin landşaftının özünəməxsusluğu ilə də digər yerlərdən fərqlənir. Təpələrin quzey yamaclarını yemişan, ardıc, dağdağan və digər kol bitkiləri bürüyüb. Güney yamaclar isə birillik və çoxillik bitkilərlə zəngindir. Buradakı dərələr qədimliyini öz bitki örtüyü ilə qoruyub saxlayır: "Əncirlik", "İnnablıq", "Armudlu", "Dağdağanlı", "Sulu təpə"…

Şahbulaq kəndinin qabaq-qənşərində yerləşən "Quzey bağ" haqqında ayrıca danışmaq olar. Bu bağ kəndə daha füsunkar yaraşıq verir. Bağın münbit torpağı var. Relyefin meyilli olmasına baxmayaraq, kiçik terraslar və düzənliklər buranın endemik bitkilər üçün əlverişli olmasına şərait yaratmışdır. "Quzey bağ"da armudun, cəvizin, əriyin, alçanın bir neçə növünə rast gəlinir. Ötən əsrin 90-cı illərinin əvvəllərində müəyyən səbəblərdən buradan kəsilmiş ağacların yerində artıq bərpa işləri aparılıb.

Yay aylarında Şahbulaq kəndində suvarma suyuna olan tələbatı tam ödəməyin çətinliyi nəzərə alınaraq, "Sulu dərə"dən və "Tunceyi dərə"dən axan suların səmti kəndə döndərilib.

Şahbulaq kəndində hər bir ev, bütün sosial obyektlər fasiləsiz qazdan və işıqdan istifadə edir, poçt və rabitə xidmətinin, mədəniyyət müəssisələrinin fəaliyyəti normal səviyyədədir, müasir tam orta məktəb binası qapılarını müəllim və şagirdlərin üzünə açıb.

2013-cü ildə Şahbulaqda geniş tikinti-quruculuq işləri aparılıb. ***"Muxtar respublikanın kəndlərinin müasir görkəm alması ölkəmizdə həyata keçirilən məqsədyönlü sosial siyasətin bəhrəsidir. Bu gün Şahbulaq kəndi də muxtar respublikanın abad yaşayış məntəqəsinə çevrilmişdir"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dekabrın 3-də bu yaşayış məntəqəsində dörd sosial obyektin açılışında iştirak edib, kənd sakinləri ilə görüşüb. Sakinlər onlar üçün yaradılan bu şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Həmin gün kənddə 110 şagird yerlik tam orta məktəb binası istifadəyə verilib. Məktəbdə 11 sinif otağı, müxtəlif laboratoriyalar, hərbi kabinə, kompüter otağı, 3 min 700 kitab fondu olan kitabxana, idman zalı, 3 elektron lövhəli sinif vardır. Bütün siniflər, kabinələr, laboratoriyalar, müəllimlər otağı müasir avadanlıqlarla və əyani vəsaitlərlə təmin edilib. Məktəbin açılış mərasimində çıxış edən Ali Məclisin Sədri deyib: ***"Təhsilli, bilikli və vətənpərvər gənc nəslin yetişdirilməsi ölkənin gələcəyinin təmin olunması deməkdir. Bu gün muxtar respublikada yeni məktəb binalarının istifadəyə verilməsi yaşayış məntəqələrində təhsilin səviyyəsini yüksəldirsə, bu məktəblərdə yetişən gənclər isə gələcəkdə müxtəlif sahələrdə çalışmaqla, ümumilikdə, ölkəmizə xidmət edəcəklər. Ona görə də gənclərin təhsilli və vətənpərvər böyüdülməsinə xüsusi diqqət yetirilməlidir. Şahbulaq kəndində bu vəzifələrin həyata keçirilməsi üçün lazımi şərait yaradılmış, ən yeni tədris avadanlıqları ilə təmin olunmuş məktəb binası müəllim və şagirdlərin istifadəsinə verilmişdir".***

İkimərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, feldşer-mama məntəqəsi, baytar otağı, rabitə evi, polis sahə məntəqəsi, kitabxana və mədəniyyət evinin normal fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Burada həmçinin 55 yerlik iclas zalı da vardır.

Ərzaq mağazası, ət satışı dükanı, bərbər və qadın gözəllik salonu üçün nəzərdə tutulmuş yeni xidmət mərkəzində 4 nəfər işlə təmin olunub.

Bütün sosial obyektlər mərkəzləşdirilmiş istilik sistemi ilə qızdırılır. Kənddə aparılan quruculuq işləri ilə paralel şəkildə rabitə, elektrik, qaz və içməli su xətləri təzələnib, kənddaxili məhəllələr boyu yol kənarlarına hasar çəkilib. Hər bir obyektin həyətində və ətrafında abadlıq tədbirləri görülüb, yaşıllıqlar salınıb, piyadaların gediş-gəlişi üçün səkilər düzəldilib. Ümumilikdə, bu obyektlər ucqar dağ kəndinin təbii gözəlliyinə yeni çalarlar qatıb.

Kənddə olduğum müddətdə ziyalılarla, ağsaqqallarla söhbət etdim, onların ürək sözlərini dinlədim. Kənd sakini İsrafil Bağırovun dedikləri:

– Şahbulağa gələn bu yol dağların arası ilə ilk dəfə Gümüşlü mədəni istismara veriləndə, yəni ötən əsrin ortalarında çəkilib. Çınqıllı-daşlı yol ilə yalnız iri maşınlar gəlib-gedə bilirdi, yaz selləri gələndə isə işimiz daha da çətinləşirdi. Uzun müddət kənddə nəinki tibb məntəqəsi, heç orta ixtisaslı tibb işçisi də olmayıb ki, xəstələnənlərə, heç olmazsa, ilkin yardım göstərsin. Altmış-yetmişinci illərə qədər uşaqlarımı oxutmaq istəyənlər onları "fin evi" deyilən ikiotaqlı ibtidai məktəbə qoyurdular, sonra isə təhsillərini davam etdirməkdən ötrü minbir çətinliklə aşağı kəndlərdəki məktəblərə göndərirdilər. Bu gün, şükür Allaha, müasir, yaraşıqlı məktəbimiz də var, tibb məntəqəmiz də, gözəl mağazamız da… İşığımız, qazımız fasiləsiz verilir, evimizdə oturub dünyanın istənilən yeri ilə telefon əlaqəsi yarada bilirik. Şahbulaq artıq müasir kəndi yox, yaraşıqlı qəsəbəni xatırladır. İsti yay günlərində istirahət etmək üçün bura çoxları gəlir, çünki həm gözəl təbiət, sərin hava, həm də diş göynədən bumbuz bulaqlar var. Aparılan quruculuq işlərindən sonra kəndimizdə istirahət etməyə gələnlərin sayı artıb, ona görə ki, yol problemimiz həllini tapıb, bura artıq hər bir minik avtomobili ilə rahat gəlib-getmək mümkündür. Sağ olsunlar, tikib-quranları, hamımız təşəbbüskarlara, təşkilatçılara, icraçılara minnətdarıq.

Belə xoş təəssüratlarla Şərur elinin dağ kəndi olan, mənfur düşmənlərin qarşısında keçilməz və alınmaz qalaya çevrilən, bu gün xoş və firavan günlərini yaşayan Şahbulaq kəndindən ayrılmaq vaxtı çatır. Sonda yenə Şapur bulağının suyundan içirik. Yadıma isə Püsyan kənd sakini, hazırda təqaüddə olan müəllim, "Şərur" ədəbi birliyinin ilk üzvlərindən olmuş Teymur Əliyevin aşağıdakı misraları düşür:

*Dörd yanın təpədir, qayadır,*
*saldır,*
*Bumbuz bulaqların şəkərdir,*
*baldır,*
*Cənnət ki, deyirlər, o bir*
*xəyaldır,*
*Sən cənnətin gerçəyisən,*
*Şahbulaq…*

**İbrahim YUSİFOĞLU**
**şair-publisist**

---

*Müasir dövrdə istehsalın təhlükəsizliyinin artırılması, iş qabiliyyətinin qorunması tədbirləri ilə yanaşı olaraq iş zamanı baş verə biləcək bədbəxt hadisələr nəticəsində insanların həyatına və sağlamlığına, əmək qabiliyyətinə dəyən zərərlərin əvəzinin ödənilməsinə xidmət edən sığortanın əhəmiyyəti də artmaqdadır. Sığortanın icbari olaraq tətbiq olunması cəmiyyətdə hamının qəbul etdiyi digər icbari qayda-qanunlar kimi ictimai zərurətdən irəli gəlir.*

## İstehsalatda bədbəxt hadisələrdən icbari sığorta hər bir işçinin hüququdur

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta mühüm bir sosial tələbatdır. Belə ki, istehsalatda çalışan insanların sağlamlığının qorunması üçün lazım olan hər cür tədbirlər görülsə də, bir çox fəaliyyət növlərində yaranan riskli hallar zamanı bəzən qarşısının alınması mümkün olmayan hadisələrlə üzbəüz qalırıq. Buna görə də ölkəmizdə 11 may 2010-cu il tarixdə qəbul edilmiş "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununa əsasən aparılan icbari sığortanın mühüm əhəmiyyəti vardır. Bu qanuna əsasən aparılan icbari sığorta istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində sığortaolunanların əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişinin verilməsini nəzərdə tutur. Verilən bu ödənişlər iş vaxtı əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maddi təminatına kömək edir.

İcbari sığortanın bu növündə sığortaçı, sığortalı, sığortaolunan və digər faydalanan şəxslərin konkret hüquq və vəzifələri vardır. Mövcud qanuna əsasən, işəgötürən hüquqi və ya fiziki şəxslərlə bağlanmış əmək müqaviləsi və ya mülki-hüquq müqaviləsi əsasında işləyən hər bir işçi, dövlət orqanlarında, idarə, müəssisə və təşkilatlarda çalışanlar, sahibkarlıq və fərdi qaydada əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, habelə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş və işləyən şəxslər istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən icbari qaydada sığorta olunmalıdırlar. Bundan əlavə, qanuna görə istehsalat təcrübəsi keçən tələbələr, müəssisələrdə işə cəlb olunmuş hərbi qulluqçular, hərbi və fövqəladə vəziyyət rejimində işlərin yerinə yetirilməsinə cəlb olunmuş şəxslər də bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta olunmalıdırlar.

Bu sığorta növündə xeyrinə icbari sığorta müqaviləsi bağlanılmalı olan şəxsin əmək fəaliyyətini yerinə yetirdiyi zaman bədən üzvlərinin zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin şəkildə pozulması, o cümlədən əlverişsiz və zərərli istehsalat amillərinin təsiri ilə yaranan xroniki və ya kəskin xəstəlik halları sığorta hadisəsi hesab edilir. Bağlanmış müqaviləyə əsasən, belə hallar baş verdikdə sığorta ödənişi almaq hüququna malik faydalanan şəxsə onun məruz qaldığı maddi itkilərin ödənilməsi məqsədilə sığorta məbləği verilir. Lakin onu da qeyd etmək lazımdır ki, istehsalatda bədbəxt hadisələrin baş verməsi və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın tətbiqi zamanı sığortaçı baş vermiş sığorta hadisəsinin sığortaolunanın özü tərəfindən qəsdən törədilmiş hərəkətin nəticəsi olduğu, habelə onun sərxoş vəziyyətdə olması halında baş verdiyi zaman sığorta ödənişindən imtina hüququna malikdir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi və ölüm ilə əlaqədar sığortaolunan və yaxud faydalanan şəxslərin sığorta ödənişi almaq hüququ vardır. Belə faydalanan şəxslər istehsalatda sığorta hadisəsi nəticəsində zərərçəkmiş şəxslərin özü və ya sığorta hadisəsi nəticəsində sığortaolunanın ölməsi halında onun himayəsində olmuş əmək qabiliyyəti olmayan şəxslər, habelə sığortaolunanın ölümündən sonra doğulmuş uşaqları və digər faydalanan şəxslərdir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta zamanı sığortahaqqı xeyrinə icbari sığorta müqaviləsi bağlanılan şəxslərin müəyyən olunmuş qaydada hesablanan birillik əməkhaqqı fondunun sığorta tarifinin faiz nisbəti əsasında hesablanır. Sığorta tarifi isə istehsalatda fəaliyyət növündən asılı olaraq müəyyən olunmuş peşə riskinin dərəcəsindən və sığortaolunanların kateqoriyalarından asılı olaraq 0,2 faizdən 2 faizədək müəyyənləşdirilir.

Beləliklə, hər bir işçinin iş yerində baş verə biləcək bədbəxt hadisələrdən və peşə xəstəliklərindən peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın həyata keçirilməsi işəgötürənin qanunvericiliklə müəyyən olunmuş vəzifəsi, hər bir işçinin isə qanuni haqqıdır. İşəgötürən bu vəzifələri yerinə yetirməklə öz işçilərinin sosial müdafiəsini də tam təmin etmiş olur. Ona görə də bu sığortanın aparılması göstərilən hallarda əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olan digər insanların maraq və mənafelərinin qorunması baxımından əhəmiyyətlidir.

**Əli CABBAROV**

---

## 2015-ci ildə muxtar respublikadan 96 milyon ABŞ dollarından çox kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur



Ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatı məhsullarının istehsalı mühüm əhəmiyyət daşıyır. Bu sahəyə göstərilən dövlət qayğısının nəticəsidir ki, hər il məhsul istehsalçılarına güzəştli şərtlərlə müxtəlif təyinatlı texnikalar, yanacaq və gübrələr, həmçinin muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən kreditlər verilir. Bu istiqamətdə davam etdirilən tədbirlər "Kənd təsərrüfatı ili" elan edilmiş 2015-ci ildə də diqqətdə saxlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, sahibkarlığa dəstək məqsədilə cari ildə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən məhsul istehsalçılarına 19 milyon 604 min manat kredit verilmişdir ki, bu da kənd təsərrüfatı məhsullarının istehsal həcminin artmasına səbəb olmuşdur. İstehsal olunmuş kənd təsərrüfatı məhsulları ixracın həcminə də müsbət təsir göstərmiş və cari ildə muxtar respublikadan 96 milyon 518 min ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

**Xəbərlər şöbəsi**



# Naxçıvan Musiqi Kolleci milli musiqimizin yaşadılması və təbliğinə öz töhfəsini verir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixdə imzaladığı "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamdan sonra muxtar respublikamızda geniş yaradıcılıq və təşkilatçılıq işi aparılmış, milli dəyərlərin qorunması və inkişafı daim diqqət mərkəzində saxlanılmışdır. Bu ilin noyabr ayının ilk günlərində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən xalq yaradıcılığı sərgisi də həmin tədbirlərin davamı idi. Xalq yaradıcılığının təntənəsinə çevrilən tədbirdə Naxçıvan Musiqi Kollecinin gənc kollektivlərindən birinin – qədim musiqi alətləri ansamblının çıxışına hamı heyran qalmışdı.***

Xalq musiqimizin ən ulu örnəklərini sazın ecazkar səsində, neyin naləsində, zurnanın harayında, rübabın kövrək ahəngində, balabanın yanğısında dinləmək xoşdur. Bu musiqi alətlərinin unudulanını üzə çıxarmaq, bu günün adamlarına çatdırmaq nə qədər nəcib və xeyirxah bir işdir. Ansamblın tərkibinə daxil edilmiş ən qədim musiqi alətlərindən olan rübab, tənbur, ud, çəğanə, ney, saz, cürə saz, qanun, zurna, balaban, tütək, nağara və qoşanağara kimi milli musiqi alətlərində səsləndirilən musiqilərdə, müğənnilərdən Əbülfəz Məmmədovun, Əfsanə Babayevanın, Ağaxan Məmmədovun, Rüstəm İbrahimovun, Cavad Babayevin və başqalarının ifa etdikləri "Şur təsnifi", "Dilkeş təsnifi", "Ceyran sevgilim", "Gilənar", "Sən-sən", "Güləbətin", "Tellərin" və başqa xalq mahnılarında milli-mənəvi dəyərlərimizin təravəti duyuldu. Nəğmə nəğməyə calandı, həzin folklor təranələri dalğa-dalğa ətrafa yayıldı.

Həmin ansambl haqqında oxuculara ətraflı məlumat vermək üçün bu ansamblın fəaliyyət göstərdiyi nəğmə dolu bir ünvana – ümummilli liderimiz Heydər Əliyevin milli mədəniyyətimizə göstərdiyi xüsusi qayğı və diqqət sayəsində 1975-ci ilin aprel ayından fəaliyyətə başlayan Naxçıvan Musiqi Kollecinə yollandıq. Əsaslı təmir və yenidənqurma tədbirlərindən sonra yerləşdiyi ərazinin hüsnünə xüsusi gözəllik verən bu təhsil ocağına çatarkən musiqi ifaçılarının şaqraq səsi uzaqdan eşidilirdi.

Əvvəlcə Musiqi Kolleci barədə məlumat verək. Kollecin direktoru Həsən Seyidov bildirdi ki, muxtar respublikada təhsilə və mədəniyyətə göstərilən diqqət və qayğıdan bu il 40 illik yubileyi qeyd olunan Naxçıvan Musiqi Kollecinə də pay düşmüşdür. Yenidənqurma zamanı kollecin maddi-texniki bazası möhkəmləndirilmiş, zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan binada tədrisin nümunəvi təşkili üçün hər cür şərait yaradılmışdır. Təhsil ocağında 5-i elektron lövhəli olmaqla, 70 sinif otağı, kompüter və müəllimlər otaqları, kitabxana, iclas və idman zalları, xoreoqrafiya sinfi, hərbi kabinə, səsyazma studiyası, arxiv və bufet müəllim və tələbə heyətinin istifadəsinə verilmişdir. Kollecin kompüter sinfində 23 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuşdur.

Kollecdə 11 ixtisas üzrə 562 tələbənin təlim-tərbiyəsi ilə 156 müəllim və konsertmeysterin məşğul olduğunu qeyd edən Həsən Seyidov ixtisaslı musiqiçi kadrların hazırlanmasında fəaliyyətlərini daha da artıraraq onlara göstərilən bu qayğı və diqqətə əməli işlərilə cavab verəcəklərini bildirdi. Hiss olundu ki, ən yüksək maddi-texniki bazaya malik olan bu sənət ocağında sözlü-nəğməli, qəlbləri ilhamlandıran, insanlara xoş ovqat təlqin edən, musiqi sənətimizi yaşadacaq musiqiçilər təhsillərini davam etdirirlər.

Musiqiçi kadrların hazırlanmasında əməyi olan müəllimlərdən Qurban Qasımovun, Mustafa Məmmədovun, Vahid Quliyevin, Aynur Məmmədovanın, Rəna Cəfərovanın, Mahirə Məmmədovanın, İlahə Əliyevanın, Cəlil İsmayılovun, İxtiyar Seyidovun və başqalarının adlarını sadalayan Həsən müəllim xalqın mövcudluğunun əsas göstəricilərindən biri olan milli-mənəvi xəzinənin yaşadılmasında kollecin müəllim heyətinin bundan sonra da uğurla fəaliyyət göstərəcəklərini qeyd etdi.

Bu sənət ocağında milli musiqimizi inkişaf etdirən müəllimlərdən biri – Xalq çalğı alətləri şöbəsinin saz ixtisası üzrə müəllimi, qədim musiqi alətləri ansamblının yaradıcısı İxtiyar Seyidovla məşq otağında görüşdük. İlk baxışdan ansamblda ifa olunan xalq mahnıları və gənc musiqiçilərin qədim musiqi alətləri olan rübabda, udda, neydə, çəğanədə, cürə sazda, nağara və qoşanağarada, kamançada müşayiətləri diqqətimizi cəlb etdi. Yüksək peşəkarlıqla ifa edən musiqiçilərə yönələn diqqətimizi İxtiyar müəllimin səsi yayındırdı:

– Bunlar ansamblımızda səsləndirilən ən qədim musiqi alətlərimizdir. Gördüyünüz bu musiqi alətlərini heç bir dəzgahdan istifadə etmədən tut, qoz, cəviz və ərik ağaclarının materiallarından hazırlamışam. Onu da deyim ki, ansamblımızda ifa olunan musiqi alətləri belə qədim alətlərin hamısı deyil. Onlardan qopuzun başqa növlərini, tulumu və digər musiqi alətlərimizi yaxın vaxtlarda hazırlayıb qurtarandan sonra ansamblımızın tərkibinə daxil etməklə repertuarımızı daha da zənginləşdirəcəyik. Xalqın mənəvi dünyası onun varlıq şəhadətnaməsidir, – deyən İxtiyar müəllim bildirdi ki, gördüyünüz bu musiqi alətlərini qoruyub saxlamaq milli dəyərlərə sahib çıxmaqdır. Bu milli-mənəvi dəyərlər əvvəlcə mədəni xəzinələri yaradır, sonra isə bu sənətlər xalqları, millətləri yaşadır, onları əbədi və qüdrətli edir.



Yaradıcılıq uğurlarını müəllimliklə yanaşı, yaratdığı qədim musiqi alətləri ansamblında davam etdirən müsahibim ansamblın fəaliyyətinin daha da genişləndirilməsinin əhəmiyyətini vurğuladı:

– Müasir elmi biliklərə yiyələnən gənclərimiz milli-mənəvi dəyərlərimizi mənimsəməklə öz layiqli yerlərini tuta bilərlər. Milli-mənəvi dəyərlərə dərindən bələd olan gənclik özlüyündə mənsub olduğu dövlətin gələcəyinin qarantına çevrilir, daha doğrusu, o da milli-mənəvi dəyərlərin qorunub saxlanması və yaşadılması sahəsində bir vətəndaş kimi dövlətin keşiyində dayanır.

**Nizami ƏZİZƏLİYEV**







# Sərhəd bölgəsi Sədərəyin təhsil uğurları artır

***Təhsil istənilən ölkədə xalqların gələcək inkişaf perspektivinə hesablanmış mühüm sahədir. Buna görə də cəmiyyətdə hansı sahə olursa olsun, o sahənin inkişafı birbaşa təhsildən asılıdır. Diqqət etsək görərik ki, müasir dövrdə inkişaf etmiş dövlətlərin hamısında ən böyük sərmayə təhsilə qoyulmuşdur. Çünki təhsilə çəkilən zəhmət, sərf edilən investisiya heç zaman itmir, bir müddət sonra özünü doğruldur.***

Ölkəmizin özünəməxsus təhsil ənənələri olmuşdur. Lakin təhsilin inkişafı sahəsində mövcud ənənələrin milli məqsədə yönəldilməsi, bu ənənələrin müasir dövrün tələbləri səviyyəsində inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət Azərbaycana rəhbərliyinin bütün dövrlərində bu sahəyə xüsusi diqqət və qayğı göstərmiş, təhsilin inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşmış, xalqın intellektual səviyyəsinin artırılmasını ən vacib vəzifələrdən biri kimi qarşıya qoymuşdur. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən milli təhsil strategiyasının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Qeyd etmək lazımdır ki, muxtar respublikada digər sahələrlə müqayisədə təhsilə göstərilən qayğı özünü daha qabarıq göstərir. Aparılan quruculuq tədbirləri sırasında ilk yerlərdən birini də təhsil ocaqlarının tikilməsi və ya əsaslı şəkildə yenidən qurulması tutur. Görülən işlərin nəticəsidir ki, son 20 ildə muxtar respublikada 200-dən çox yeni təhsil müəssisəsi istifadəyə verilmişdir. Qürurvericidir ki, indi ən ucqar dağ kəndlərində belə, müasir tələblərə cavab verən, yeni texnoloji avadanlıqlarla təmin edilmiş təhsil ocaqları müəllim və şagirdlərin istifadəsindədir. Təbii ki, təhsilin inkişafına göstərilən hərtərəfli diqqət artıq öz bəhrələrini verməkdədir. Bunu ildən-ilə muxtar respublikamızın ümumtəhsil məktəbləri məzunlarının ali təhsil müəssisələrinə qəbul faizində də görmək mümkündür. Son dövrdə təhsildə qazandığı uğurlarla fərqlənən bölgələrimizdən biri də Sədərək rayonudur.

Sədərək muxtar respublikamızın, ümumilikdə isə ölkəmizin ən ucqar sərhəd rayonlarındandır. Muxtar respublikamızın hərtərəfli inkişafı bu rayondan da yan keçməmiş, aparılan quruculuq tədbirləri sərhəd bölgəsinin simasını xeyli dəyişmişdir. Digər infrastruktur tədbirləri ilə bərabər, rayondakı təhsil müəssisələrinin yenilənməsi də diqqət mərkəzində saxlanılmışdır. Ümumtəhsil məktəblərinin hamısı müasir tələblərə cavab verən yeni binalarda yerləşir. Rayonda olduğumuz müddətdə öyrəndik ki, Sədərək Rayon Təhsil Şöbəsinin tabeliyində 4 ümumtəhsil məktəbi və 4 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Ümumtəhsil məktəblərindən 2-si Sədərək kəndində, 1-i Qaraağac kəndində, 1-i isə rayon mərkəzi olan Heydərabad qəsəbəsində yerləşir. Hazırda bu təhsil ocaqlarında 1218 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 88 müəllim məşğul olur.

Sədərək Rayon Təhsil Şöbəsinin müdiri Malik İsmayılov bizimlə söhbətində bildirdi ki, təhsil müəssisələrində müəllim və şagirdlər üçün hərtərəfli şərait yaradılmışdır. Məktəblərin hamısında elektron lövhəli siniflər, kompüter və şahmat sinifləri fəaliyyət göstərir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi şagirdlərə əyani vasitələrlə işləməyə imkan verir. Yaradılmış şəraitin nəticəsidir ki, rayonun təhsil uğurları da ildən-ilə artır. Ötən tədris ilində rayonun ümumtəhsil məktəblərinin 88 məzunundan 58 nəfəri ali və orta ixtisas məktəblərinə sənəd vermişdir. Sənəd verənlərdən 26 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Bu isə rayon üzrə qəbul faizinin 44,8 faiz olduğunu göstərir. Eyni zamanda rayon üzrə orta ixtisas məktəblərinə 15 nəfər, Heydər Əliyev adına Hərbi Liseyə isə 3 nəfər qəbul olunmuşdur. Son 5 ildə ilk dəfə olaraq rayonun məzunlarından Naxçıvan Tibb Kollecinə qəbul bu il qeydə alınmışdır. Müqayisə üçün bildirək ki, 2013-2014-cü tədris ilində rayonun ümumtəhsil məktəblərindən 123 şagird məzun olmuş, onlardan 76-sı ali məktəblərə sənəd vermiş, 32 nəfər tələbə adını qazanmışdı. Ötən il məzunlardan 1 nəfəri hərbi liseyə qəbul olunmuşdursa, bu il onların sayı 3 nəfər təşkil etmişdir. Malik İsmayılov vurğuladı ki, muxtar respublikada təhsilin inkişaf etdirilməsi əsas məqsədlərdən biridir. Bu gün hər bir məktəbin əsas vəzifəsi gələcəyimiz üçün sağlam, bilikli vətəndaş yetişdirməkdir. Gələcəyimiz üçün əsl vətəndaşlar ailədə və paralel olaraq məktəblərdə yetişir və bu iş artıq ümummilli məsələ kimi dövlətimizin müəyyənləşdirdiyi milli təhsil strategiyasının tələbidir. Apardığımız iş onu deməyə əsas verir ki, məktəb və ailələr arasındakı bağlar nə qədər möhkəm olarsa, valideyn-müəllim-şagird üçbucağının təməli nə qədər sağlam qoyularsa, əldə edəcəyimiz uğurlar da o qədər çox olar. Hər şeydən əvvəl, gələcəyə əsl vətəndaş hazırlaya bilərik. Çünki yalnız vətənpərvər insan işlədiyi sahədən asılı olmayaraq, dövlətinə, xalqına, ümumilikdə isə Vətəninə faydalı ola bilər. Əvvəldə də qeyd etdiyimiz kimi, rayonda elə bir təhsil müəssisəsi yoxdur ki, o müəssisənin şəraiti olmasın. Bütün məktəblərimizdə dövlətin xərclədiyi böyük vəsaitlər hesabına ən müasir şərait yaradılmışdır. Belə bir şəraitdə oxumamaq və yaxud müəllim kimi o müqəddəs vəzifənin tələblərini dərk etməmək mümkün deyil. Doğrudur, ildən-ilə uğurlarımızın sayı artır. Ancaq daha böyük nailiyyətlərin yolu bugünkü fəaliyyətimizdən asılıdır. Məqsədimiz daha səy və əzmkarlıqla çalışaraq təmsil olunduğumuz sahəni daha da inkişaf etdirmək, ölkəmizin, eləcə də muxtar respublikamızın gələcək inkişafına töhfə verməkdən ibarətdir.

**Səbuhi HƏSƏNOV**

***Bu rubrika ilə Şərq aləmində tanınmış filosof və həkim Nəcməddin Əhməd Əbubəkr oğlu Naxçıvani haqqında verdiyimiz yazı oxucular tərəfindən maraqla qarşılanıb. Bunu nəzərə alaraq bu dəfə oxucularımıza Naxçıvan torpağının yetişdirdiyi bədii metal ustası Osman Salman oğlu Naxçıvani barəsində məlumat verməyi qarşımıza məqsəd qoymuşuq.***

*Unutsaq,unudularıq*

# *Osman Salman oğlu Naxçıvani* kimdir?

Məlum olduğu kimi, Azərbaycan incəsənətinin qədim və zəngin tarixi vardır. Qobustanın qaya təsvirləri, Qafqaz Albaniyasının bədii keramika və metal məmulatı, bədii şüşə və oyma sənəti, orta əsrlərdə dünya şöhrəti qazanmış Təbriz miniatür sənəti nümunələri, rəngarəng xalçalar, tikmələr, şirli saxsı qablar, kaşı sənəti, zərif oyma şəbəkələr və gözəl zərgərlik məmulatları – bütün bunlar bədii irsimizin çox zəngin olduğunun sübutudur. Bədii metal sənəti bu sırada özünəməxsus yer tutur. Tarixə nəzər salsaq görərik ki, metalişləmə sənətkarlığı sahəsində Azərbaycanın Beyləqan, Gəncə, Naxçıvan şəhərləri mühüm mərkəzlərdən sayılıb. Naxçıvan isə dünyanın ilk qədim metal (mis) işləmə ocaqlarından biridir. Orta əsrlərdə misgərlik, zərgərlik, ipəkçilik, xalçaçılıq kimi sənətlər geniş yayılmış, yüksək sənətkarlıq və zövq ilə hazırlanmış müxtəlif məişət əşyaları və zərgərlik məmulatları şöhrət qazanmışdır. Arxeoloji qazıntılar zamanı Naxçıvandan əldə olunan bir sıra sənət nümunələri belə deməyə tam əsas verir. Bədii metal sahəsində aparılmış elmi araşdırmalar göstərir ki, bədii metal nümunələri döymə, basma, qara savad, şəbəkə, xətamkarlıq, minaçılıq olmaqla, 6 texniki üslubda bəzədilirdi. Naxçıvanın yerləşdiyi ərazi imkan verirdi ki, burada yaradılan sənətkarlıq məhsulları ticarət əlaqələri və sair kimi amillər nəticəsində dünya bazarına çıxarılsın. Belə qiymətli sərvətlərimizin Avropa, Asiya və Amerikadakı ölkələrin muzey və şəxsi kolleksiyalarına yayılması da böyük bir tarixə malikdir. Onların bir çoxu ayrı-ayrı şəxslərdən alınmış, bəzilərini müxtəlif vaxtlarda ölkəmizdə olmuş əcnəbi səyyah, tacir, diplomat və alimlər aparmış, bəziləri isə qarət olunmuşdur.

Dünyanın bir çox muzeylərində ədəbi, tarixi əsərlərimizlə yanaşı, çox nadir sayılan gümüş, mis və bürüncdən düzəldilmiş bədii metal sənəti nümunələrimiz də vardır. Bunların içərisində bürüncdən düzəldilmiş 1190-cı il tarixli orijinal fiqurlu bir qab xüsusilə diqqəti cəlb edir. Bu sənət əsəri hazırda Fransanın Paris şəhərindəki Luvr muzeyinin birinci mərtəbəsində Şərq incəsənətinə aid edilən salonun tən ortasında, üstünə şüşə kolpak keçirilmiş hündür bir kətil üstdə nümayiş etdirilir. Gümüşlə işlənən naxışlara malik, uzundimdikli quşa bənzər bu bürünc qabın orijinallığı tək onun formasında deyil, həm də bəzəklərindədir. 22 santimetr olan qabın üzərindəki bəzəklər üç müxtəlifölçülü qurşaqlardan və onların aralarındakı boşluqlarda yerləşdirilmiş medalyonlardan ibarətdir. Döymə və cızma texniki üsulu ilə həkk olunmuş bu bəzəklər stilizə edilmiş nəbati ornament ünsürlərindən və yazı nümunələrindən quraşdırılmışdır. Bu yazıların birində onu yaradan ustanın – Osman Salman oğlu Naxçıvani adı yazılmışdır. Luvr muzeyində olarkən oranın necə böyük və dəbdəbəli tarixi özündə mühafizə etdiyini gördük. Həmyerlimizin əsərinin orada qorunması təsadüfi hal deyil. Bu, sənət əsərinin üslubunun orijinallığının və naxışların füsunkarlığının nəticəsidir. Bununla qürur duymağa dəyər. Ancaq belə əsərlərin öz muzeylərimizdə qorunması daha yaxşı olardı.

Dünya şöhrətli Luvr muzeyində qorunan, dünyanın tamaşa etdiyi əsərin müəllifi, bizim isə, təəssüf ki, haqqında az məlumata sahib olduğumuz Osman Salman oğlu Naxçıvani kimdir?

Bu haqda mənbələrdən oxuyuruq: Rəssam, nəqqaş (12-ci əsr) Osman ibn Salman Naxçıvani bədii metal ustası olmuşdur. O, incə naxışlı zərif qablar hazırlamış, bu sahədə tanınmışdır. Ona məxsus olan Naxçıvan bürünc dolçası Beyləqandan tapılmışdır. Qaynaqlarda on ikinci əsrdə və on üçüncü əsrin əvvəllərində Beyləqanın Yaxın Şərqin məşhur sənətkarlıq, ticarət və mədəniyyət mərkəzinə çevrilməsi ilə bağlı xeyli məlumatlar var. Naxçıvan dolçasının orada tapılmasının məğzini bu tarixi fakt bir daha sübut edir.

*Osman Salman oğlu Naxçıvani haqqında mütləq təzkirələrdə və sair qaynaqlarda məlumatlar olacaqdır. Bu işin tədqiqatçılarının Osman Naxçıvani barədə gözəl araşdırmalarını oxumaq ən böyük arzularımızdandır.*

**✍ Nərgiz İSMAYILOVA**

*Yeni nəşrlər*

## “Anesteziya, reanimasiya və onun praktiki tədrisinin bəzi aspektləri” kitabı nəşr olunmuşdur



***Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi Cərrahiyyə şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Cəbi İsmayılovun “Anesteziya, reanimasiya və onun praktiki tədrisinin bəzi aspektləri” kitabı işıq üzü görmüşdür.***

Reanimasiya ölümə məruz qalan və kliniki ölüm vəziyyətinə düşmüş insanın həyatını xilas etmək üçün müasir təbabətdə yayılmış yenidən canlandırma metodudur. Tibbin elə bir sahəsi yoxdur ki, orada anestezioloji yardıma, intensiv müalicəyə ehtiyac olmasın. Kitabda verilmiş obrazlı bir ifadədə bu fikir öz əksini belə tapır: “Anestezioloq xəstə üçün mələykə-cangüdəndir”. Xəstəliyin növündən asılı olmayaraq, anestezioloq və reanimatoloqlar həmin xəstələrə yardım göstərirlər. Ona görə də reanimasiya bölmələri müvafiq səhiyyə müəssisələrinin mühüm tərkib hissəsinə çevrilmişdir. Son illər inşa olunan xəstəxana və dispanserlərdə müasir tələblər səviyyəsində reanimasiya şöbə və bölmələrinin istifadəyə verilməsi də bu zərurətdən meydana gəlir. Bu bölmələr dünya standartlarına cavab verən ən müasir tibbi avadanlıqlarla, cihaz və aparatlarla təmin olunur. Hazırda əsas diqqət təcili və təxirəsalınmaz yardım göstərilən bu bölmələr üçün ixtisaslı tibbi kadrlar yetişdirməkdən, ekstremal vəziyyətdə işləyən tibb işçilərinin bilik və bacarıqlarını yüksəltməkdən ibarətdir. Belə bir şəraitdə təcrübəli həkim-cərrah, tibb üzrə fəlsəfə doktoru, dosent Cəbi İsmayılovun “Anesteziya, reanimasiya və onun praktiki tədrisinin bəzi aspektləri” monoqrafiyası ixtisasından asılı olmayaraq, hər bir tibb işçisi üçün mühüm əhəmiyyət kəsb edir.

“Anesteziya, reanimasiya və onun praktiki tədrisinin bəzi aspektləri” monoqrafiyasında anesteziya, reanimasiyanın bir elm sahəsi kimi inkişaf tarixindən, onların təşkili prinsiplərindən, hospitala qədər reanimasiyadan bəhs olunur. Kitabda reanimasiya və intensiv terapiya tədbirləri, traxeyanın intubasiya texnikası, ürəyin yeni üsulla masajı, ürək-ağciyər-beyin reanimasiyasının praktiki izahı, infuziyon terapiya, tənəffüs yollarının anatomiyası, intubasiyon borular, manjetlər, onların xüsusiyyətləri və istifadə qaydaları, müəllif tərəfindən yeni təklif olunan endotraxeal intubasiyasının asanlaşdırılma metodikası haqqında məlumat verilir. Vəsait anestezioloq-reanimatoloq həkimlər üçün intubasiya və çətin intubasiya təsadüflərində əsas informasiya mənbəyidir. Eyni zamanda vəsaitdən tələbələr, həkimlər, anestezioloqiya sahəsində ixtisaslaşan mütəxəssislər, orta tibb işçiləri dəyərli məlumatlar əldə edə bilərlər.

Kitab ön söz, giriş və iki fəsildən ibarətdir. 86 elmi ədəbiyyatdan istifadə olunub. Mövzuya aid şəkil, cədvəl, diaqram və slaydlar kitabdakı müddəaları daha asan qavramağa kömək edir.

## Həkim briqadaları kütləvi profilaktik tibbi müayinələr aparmışlar

Muxtar respublika əhalisinin dispanserizasiya işinin yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin, Mərkəzi Uşaq Xəstəxanasının, Doğum Mərkəzinin, Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin, dispanserlərin və rayon mərkəzi xəstəxanalarının yaratdığı həkim briqadaları ayda bir dəfə müxtəlif uzaq dağ kəndlərində, yaşayış məntəqələrində olur, əhaliyə tibbi xidmət göstərərək onları müayinədən keçirirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası ənənəni davam etdirərək Şahbuz rayonundakı Aşağı Qışlaq kəndində olmuşdur.

Pediatr, stomatoloq, oftalmoloq, nevropatoloq, endokrinoloq və laborantlardan ibarət briqada kəndin həkim ambulatoriyasında uşaqları kütləvi profilaktik tibbi müayinədən keçirmişdir. Kənddə 50 nəfər uşağa tibbi xidmət göstərilmiş, aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün Mərkəzi Uşaq Xəstəxanasına gəlmələri məsləhət görülmüşdür. 50 nəfər valideynlə səhiyyə maarifi işi aparılmış, uşaqların sağlamlığının qorunmasında səhiyyə müəssisələri ilə valideynlərin birgə fəaliyyətinin zəruriliyi qeyd edilmişdir.

Xəstələrə pulsuz dərman və sarğı materialları verilmiş, peyvəndlərin təqvim üzrə aparılması və dispanserizasiya işinin təşkili, tibbi sənədləşmənin düzgün həyata keçirilməsi ilə əlaqədar tibb işçilərinə metodik köməklik göstərilmişdir.

* * *

Ordubad Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası isə Gilançay kəndində yeni qurulcuq ünvanlarında olan feldşer-mama məntəqəsində əhalini profilaktik müayinədən keçirmişdir. Bu il noyabrın 23-də istifadəyə verilmiş Gilançay Kənd Mərkəzində feldşer-mama məntəqəsi üçün 3 iş otağı ayrılmışdır. Məntəqə dərman preparatları, ilkin tibbi yardım və peyvənd çantaları ilə təmin olunmuşdur.

Stomatoloq, oftalmoloq, terapevt, ginekoloq, pediatr və ultrasəslə müayinə həkimlərindən ibarət briqada məntəqənin tibb işçilərinin də fəal iştirakı ilə gün ərzində 150 müayinə aparmışdır. 26 uşaq pediatrik müayinəyə cəlb edilmişdir. Aşkar olunan ilkin xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülmüş, onlara ambulator kartlar açılmışdır. 1 uşaqda anemiya, 1 uşaqda helmintoz aşkar edildiyindən onlar dispanser qeydiyyatına götürülmüş, kənd üzrə dispanser qeydiyyatında duran xroniki xəstələrin sayı dəqiqləşdirilmişdir. Əhali arasında mövsümi xəstəliklər zamanı ilkin tibbi xidmət, uşaqların düzgün qidalanması, ana südünün əhəmiyyəti, qohumluq nikahının və zərərli vərdişlərin hamiləliyə ziyanı barədə səhiyyə maarifi işləri aparılmış, xəstəliklərin profilaktikası ilə bağlı tibbi məsləhətlər verilmişdir.

Eyni zamanda ambulator qəbul, evə çağırış, ailə, dispanser xəstələrin, hamilələrin və peyvəndlərin qeydiyyatı jurnalları yoxlanılmış, çatışmazlıqların aradan qaldırılması üçün lazımi tapşırıqlar verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Səni tərənnüm edirəm doğma Naxçıvan

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Filarmoniyası tərəfindən “Səni tərənnüm edirəm doğma Naxçıvan” adlı konsert proqramı təşkil olunub.*

Əvvəlcə xalq çalğı alətləri orkestri və xor kollektivi Üzeyir Hacıbəyovun “Koroğlu” operasından “Çənlibel xoru”nu ifa ediblər. Qeyd edək ki, orkestrin bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev, xormeyster Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Mahirə Əsgərovadır.

Solistlərdən Azərbaycan Respublikasının Əməkdar artistləri Mübariz Əsgərovun və Gülyanaq Fərzəliyevanın, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Tural Bağırovun, Yaşar Qurbanovun, Elçin Nağıyevin, Hünər Əliyevin və başqalarının ifaları alqışlarla qarşılanıb. Musiqi nömrələrini estrada və kamera orkestrləri müşayiət ediblər.

Konsert proqramında mahnı və rəqs ansamblının çıxışları tədbir iştirakçılarında xoş ovqat yaradıb. Ansamblın bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayev, baletmeyster Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırovdur.

**Xəbərlər şöbəsi**

## İdmançılar karate-do üzrə kəmər imtahanı veriblər

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkilatçılığı ilə tədbir keçirilib. Culfa rayon Bənəniyar kəndində təşkil edilən tədbirdə 16 idmançı karate-do üzrə kəmər imtahanı verib. İmtahanı isə federasiyanın sədr müavini Cavanşir Salayev və Azərbaycan Respublikasının Əməkdar məşqçisi Hidayət Şabanov götürüb.

Kəmər imtahanından sonra federasiyanın sədr müavini Cavanşir Salayev keçirilən tədbirin mahiyyəti barədə dedi: “Tədbiri keçirməkdə məqsəd uşaq və yeniyetmələr arasında idmanı təbliğ etmək və onları zərərli vərdişlərdən uzaqlaşdırmaqdır. Mütəmadi olaraq nazirliklə birgə bu cür seminarlar, imtahanlar təşkil edirik. Eyni zamanda muxtar respublikanın şəhər və rayonlarında federasiyanın bölmələri fəaliyyət göstərir və bu bölmələrdə uşaqların daim idmanla məşğul olmaları üçün şərait yaradılıb. Bu cür tədbirlər həm də idmançılarda əlavə ruh yüksəkliyi yaradır”.

## Boksçumuz beynəlxalq turnirin qalibi olub

Azərbaycan boksunun tanınmış nümayəndələrindən biri olan mərhum Abbas Ağalarovun xatirəsinə həsr edilən gənc boksçular arasında ənənəvi beynəlxalq turnirə yekun vurulub. Bakı şəhərində keçirilən turnirdə Azərbaycan idmançıları ilə yanaşı, Rusiya, İran, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və İsrailin 74 boksçusu iştirak edib. Azərbaycan yığması bu turnirdə 10 çəki dərəcəsində 3 komanda ilə mübarizə aparıb. Beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi İdman Cəmiyyətinin yetirməsi Sərxan Əliyev də gücünü sınayıb. 60 kiloqram çəki dərəcəsində rinqə çıxan dəri əlcək sahibimiz ilk mərhələdə İsrail boksçusunu məğlub edib. Yarımfinal görüşündə turnirin favoriti qazaxıstanlı Sultan Şarşovu məğlub edən Sərxan Əliyev həlledici görüşə vəsiqə qazanıb. Final görüşündə də onun rəqibi Qazaxıstan təmsilçisi olub. Nurbol Sultanbay ilə qarşılaşan idmançımız rəqibini məğlub edərək turnirin qalibi olub.

Qeyd edək ki, Abbas Ağalarovun xatirəsinə həsr olunan beynəlxalq turnirdə Azərbaycan yığması cəmi 2 qızıl medal qazanıb ki, onun da biri Sərxan Əliyevin aktivinə yazılıb.

Sonda qalib idmançımıza diplom, medal və kubok təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 1, ev 30-da yaşayan Əsgərova Mina Xankişi qızının adına olan MH-0007279 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 953